# RAFAEL HÜSEYNOV VƏ XALQ YAZIÇISI GÜLHÜSEYN HÜSEYNOĞLU



*MAHİR QABİLOĞLU*

**Bu yaxınlarda üç nəfər - Kamal Abdulla, Afaq Məsud və Natiq Rəsulzadə - prezident İlham Əliyevin sərəncamıyla ”Xalq yazıçısı” fəxri adına layiq görüldü. Amma hər dəfə bu cür yüksək qiymət təltifindən sonra ictimaiyyətdə qəribə bir dalğa yaranır. Bu dalğanın ömrü az olur. Uzağı on-on beş gün. Yəni ki, ad alanların bu ada layiq olub-olmamaları gündəmə gəlir. Bu dəfə də belə oldu. Mənim özəl fikrimə gəldikdə isə onu deyə bilərəm ki, prezident sərəncamı müzakirə olunmur. Bircə Musa Yaqub haqqında verilən sərəncamı oxuyanda sonuna ürəyimdə iki kəlmə söz artırdım. O da ki, mötərizədə: (Ölümündən qabaq).**

Elmira Axundova Xalq yazıçısı fəxri adına layiq görüləndə sevincimi balaca bir yazıyla bölüşmüşdüm. Bu dəfə isə tamam başqa bir hiss keçirdim. Ümumiyyətlə bu cür hissi yeddi yaşımdan bəri çox yaşamışam. Hər bu ada layiq olanların adı televiziyada və ya mətbuatda elan ediləndə ilk qiymətləndirmə meyarı atamdan gəlib. Amma atamın sağlığında ”layiq deyil” sözü leksikonda yox idi. Sadəcə, niyə məhz bu məqamda bu ad verildi məsələləri, yəni səhnəarxası söhbətlər yer alırdı cəmiyyətdə. Məsəlçün... Yox. Deməyəcəyəm. Deməyəcəyəm ki, Azərbaycan Yazıçılar İttifaqının 1-ci katibi İsmayıl Şıxlı necə oldu Mərkəzi Komitəyə təqdimat yazıb öz adını da bu siyahıya saldı və kimin təkidiylə. Çünki utanırdı öz adını özü yazmağına - layiq olsa da. Deməyəcəyəm ki, məhz bu siyahıya qonşusu, dostu Qabilin adını niyə salmadı? Amma o biri qonşusu Samvel Qriqoryanın adını niyə saldı? Xəlil Rza bu adı alanda hamı nə dedi? Qabillə Bəxtiyar Vahabzadə arasında aldıqları Xalq şairi fəxri adıyla bağlı hansı zarafatları vardı? Deməyəcəyəm. Qoy sirr olaraq da qalsın.

Amma Xalq yazıçısı Gülhüseyn Hüseynoğluyla bağlı fikirlərimi, daha doğrusu, o, ”Xalq yazıçısı” fəxri adı alarkən atamla aramızda olan dialoqu yazmağa məcburam. Yazmaq istəmirdim. Amma burda ”Prezidentin sərəncamı müzakirə olunmaz” prinsipim pozulmadığı üçün yazmağa qərar verdim. Bəs başlıqda yer alan digər ad - akademik, yazıçı, filoloq, millət vəkili Rafael Hüseynovun Gülhüseyn Hüseynoğluyla nə əlaqəsi? Tələsməyin. Yavaş-yavaş. Elə isə başladıq.

### *GÜLHÜSEYN HÜSEYNOĞLU*

Onu uşaqlıqdan tanıyıram. Daha dəqiq desəm, yeddi yaşımdan. Əvvəlcə qiyabi. Gülhüseyn Hüseynoğlunun ”Mücrü” mənsur şeirinin əsasında çəkilmiş eyniadlı kiçik - 16 dəqiqəlik film televiziyada nümayişindən sonra. Qısa məzmun beləydi: Ana qızını gəlin köçürəndə ona cehiz olaraq mücrü verir və ”mücrüsüz gəlin olmaz” deyir. Gəlin isə vaxt keçdikcə mücrüyə əri tərəfindən hədiyyə edilən zinyət əşyalarını qoyur. Mücrü dolur. Lakin amansız müharibə onun ərini əlindən alır, aclıq başlayır. Gəlin məcbur qalıb mücrüdəki zinyət əşyalarını bir-bir satır və uşaqlarını böyüdür. Mücrü boşalır. İllər keçir müharibə bitir və həmin mücrü uşaqların diplomları ilə yenidən dolmuş olur. Bu filmdəki ”Açıldı mücrü, bağlandı mücrü” ifadələri ana xətt idi. Və hər dəfə bu mücrü açılıb bağlananda, iki sözdən ibarət bu ifadə zəmanəni, böyük bir ailənin xoşbəxt və ya ağır həyatını ustalıqla ifadə edirdi. Əlavə hansısa söz artıq olardı.



Bu film 1973-cü ildə çəkilmişdi. Sonra atam dedi ki, Gülhüseyn müəllim Azərbaycanda mənsur şeirin banisidir. Mikayıl Müşfiqin tədqiqatçısıdır. Antisovet ”İldırım” təşkilatının qurucularından biridir. Bəxti gətirib ki, güllələnmə o vaxt ləğv edilmişdi, 25 il həbs almaqla canını qurtardı.

Universitetdə oxuyanda Gülhüseyn müəllim mənə Mikayıl Müşfiqdən xüsusi kurs keçdi. Saralmış əlyazmaların nüsxələrini gətirib bizə oxutdururdu. Bunlar o dövrün bəzi yazıçılarının Müşfiqin əleyhinə yazdıqları ”donos”lar idi. Bəlkə də sovet zindanında yatması onu Müşfiqə daha yaxın etmişdi, onu daha dərindən duyurdu. Amma atam onun yaradıcılığını yox, daha çox Mikayıl Müşfiqlə bağlı tədqiqatlarını önə çəkirdi. Bütün xüsusiyyətlərini bir ifadədə cəmləşdirirdi. Bu qiyməti sonda deyəcəyəm. Xalq yazıçısı fəxri adı alanda atama verdiyim ”Gülhüseyn Hüseynoğlu Xalq yazıçısı fəxri adına layiqdirmi” sualına cavab idi bu qiymət. Məhz bu yazını da yazmağa məni bu ifadə məcbur etdi. Gülhüseyn müəllimlə bağlı bu qədər. Keçək yazımın əsas qəhrəmanı Rafael Hüseynova.

### *RAFAEL HÜSEYNOV*

Rafael Hüseynovun xüsusi təqdimata ehtiyacı yoxdur. Jurnalist, yazıçı, ədəbiyyatşünas alim, millət vəkili, muzey direktoru, daimi komitə sədri və ən əsası qalın-qalın kitabların müəllifi. Amma mən onu ilk dəfə yuxarıda sadaladığım xüsus və mənsəblərinə görə tanımamışam. Qiyabi tanışlığımız 1982-ci ilə təsadüf edir. İlini necə yadımda saxlamışam?



**HAŞİYƏ:** Qonşumuz, atamın dostu Salam Qədirzadə bizdə idi. Yeyib-içirdilər. Xatirələr dilə gəlirdi, sağlıqlar bir-birini əvəz edirdi. Mən də yanlarında oturub onların əmrlərini yerinə yetirirdim: ”Arağı süz!”, ”Apar ”morozilka”ya (buzxana) qoy soyusun! Biz deyəndə gətirərsən!”, ”Tavadakı yeməyi qızdır!”, ”Televizorun kanalını dəyiş, səsini al və ya qaldır!” (onda pult yox idi), ”Siqareti yandır!”. Bu əmrləri layiqincə yerinə yetirirdim. Müqabilində mənə nə içki təklif edirdilər, nə də siqaret.

Gizlincə də içmirdim, çəkmirdim. Mən 16 yaşlı ağıllı sovet uşağı idim. Birdən televizorda qıvrımsaç, qaraqaş, qaragöz, 25-30 yaş arası oğlan danışmağa başladı. Bəlkə də dediyim təsvirlər başqa rəngdəydi. Amma televizorumuz ağ-qara göstərirdi. Atamla Salam əmi əllərindəki badələri toqquşdursalar da, başlarına çəkməyib gözlərini televizora dikdilər. Başqa vaxt bir-birilərinə ”iç də... araq soyudu ki?” deyə irad bildirənlər oğlanın çıxışına diqqətlə qulaq asırdılar. O isə ədəbiyyatdan danışırdı. Sinədəftər və heç bir kağızdan oxumayaraq. Təqribən 5-10 dəqiqəlilik çıxış bitdi, kadr dəyişdi. Badələr boşaldı.

- Salam, bu kim idi? Titri oxuya bilmədim.
- Adı yadımdan çıxıb, - deyə Salam əmi cavab verdi, - bizim Ruslanla (oğlu) bir yerdə oxuyurdu şərqşünaslıqda - fars dilində.
- İstedadlı uşaqdır, - deyə atam əlavə elədi.

Söhbət bununla bitdi. Səhəri atam Salam əmiyə zəng elədi:

- Salam, ”İstedad” adlı şeir yazmışam. Sənə oxumaq istəyirəm. Dünən televiziyada danışan oğlana həsr etmişəm. Heyf ki, adını bilmədim.

Salam əmi bizə gəldi və atam şeiri ona oxudu.



*QABİL*

### *İSTEDAD*

**İstedadlar tək-tək olub hər zaman**
**Barmaq ilə göstərilib, sayılıb.**
**Qeyri-adi bir ağıldan, kamaldan**
**Ağıllara qığılcımlar yayılıb.**

**Elə toxum, elə dəndi istedad,**
**Minnəti yox nə bağbana, nə bağa.**
**Hara düşdü göyərəndi istedad,**
**Yum gözünü səp arana, səp dağa.**

**Xalvar-xalvar qum ələyər ələklər,**
**Bircə ovuc qızıl tozu tapınca.**
**Heydən düşər polad-polad biləklər,**
**Bir təbəqə qraniti çapınca.**

**Zəfəran da istedaddır elə bil,**
**Hardan-hara ətir saçır bir teli.**
**Göz yaşardan soğan kimi çox deyil,**
**Bir zolaqdır qızıl seli, nur seli.**

**Bir rəqqasə rəqqasələr içində -**
**Yeddi rənglə busat qurur istedad.**
**Fərəh, həsəd, xoş, bəd nəzər içində**
**Susmaq bilmir, cəh-cəh vurur istedad.**

**”Gözümçıxdı” bilən deyil istedad,**
**Sığala da ehtiyacı yox onun.**
**Öldürəsən, ölən deyil istedad,**
**Şirnikdirsən - gözü-könlü tox onun.**

**Tarixlərdən-tarixlərə yadigar**
**Nadir-nadir adamlardı istedad.**
**Qətiyyətli, iradəli, fədakar**
**Qadir-qadir adamlardı istedad.**

**Qədr ağacı uman deyil özünə,**
**Qədirlidir-qiymətlidir istedad.**
**Təbəssümlə nəzər salsan üzünə,**
**Dünyalarca şöhrətlidir istedad.**

**1982**

Şeirin altından qoyulan tarix isə 1982-ci il idi. Mənim Rafael Hüseynovla qiyabi tanışlığımın ilini dəqiq yadımda saxlamağım bununla əlaqədar idi. (SON)

### *İKİNCİ TANIŞLIQ*

Sovet vaxtı idi. Günlərin bir günü rayona gedirdik. Atam həmişə maşında Azərbaycan radiosuna, ya da ”Araz”a qulaq asırdı. Çünki o vaxt başqa radio yox idi. Bu zaman öz səsini eşitdi. Onun haqqında veriliş gedirdi efirə. Müxbir sual verir, o da danışırdı. Hərdən indiki dildə desək şoka salan suallar da verirdi. Atam bu sualların altından ustalıqla çıxırdı.

- Sənə sual verdi. Niyə konkret cavab vermədin? - deyə soruşdum.
- Olmaz o suala cavab vermək. Müxbir bilir cavabını. Ona görə də bu məsələyə toxunur. İstəyirsənsə sənə deyim. (deyir də..)
- Bəs müxbir bilir ki, bu suala cavab verməyəcəksən, onda niyə soruşur?
- Onun da qazancı budur da...
- Kimdi axı bu müxbir?
- Rafael Hüseynov. Bax belə oğlandır, - deyə atam sağ əlini sükandan ayırıb baş barmağını yuxarı qaldırdı.

### *ÜÇÜNCÜ TANIŞLIQ*

1987-ci il idi. Əsgərlikdən qayıtmışdım. Heç kimin kitabını oxumağa həvəsi olmayan və ümumiyyətlə heç kimin kitabını oxumayan mənə atam məsləhətlər verməyə başladı. Birinci kitab qonşumuz Bayram Bayramovun 700 səhifəlik (indinin 1500 səhifəsi) xırda şriftli ”Karvan yolu” romanı idi. Oxudum. Cəlil Məmmədquluzadəni, o dövrü, Həmidə xanım Cavanşiri və digərlərini daha yaxından tanıdım. Bəzi məqamlarda Mirzə Cəlillə İlyas Əfəndiyev arasında paralellər axtarmağa başladım. Sonra isə ”Kerri bacı”nı oxudum. Üçüncü kitabı isə atam oxuyurdu. Adı ”Vaxtdan uca” idi. Xülasə, oxuyub qurtardı. Sonra da amiranə şəkildə dedi: ”Oxumalısan!”

Başladım oxumağa. Mirzə Cəlili tanımışdım. Bu dəfə isə tamam naməlum bir yazıçını tanıdım. Çünki Cavidi çox da geniş tədris etmirdilər onda. Baxmayaraq ki, çoxdan bəraət almışdı. Onuncu sinifdə oxuyanda bir şeirini əzbərləmişdim. Bir də rejissor Mehdi Məmmədovun quruluşunda ”İblis” tamaşasına 11 dəfə baxmışdım. Niyə 11 dəfə? Çünki filologiya fakültəsi tələbələrinə Azdrama öz biletlərini dönə-dönə sırıyıb, sosiska-limonad-kojikə verəcək pulusunu əlindən alırdı. Özü də ki, yerlər partedə yox, ikinci mərtəbədə-yarusda olurdu. Amma, mən on bir dəfənin on birində də ”İblis”i əvvəldən axıracan seyr etmişdim. Xülasə, ”Vaxtdan uca”nı iki günə oxudum. Bir yerində ilişdim. Hüseyn Cavidlə bağlı bir adamın adı pisliyə çəkilirdi orda. Adı familiyası tam verilməmişdi. Baş hərfləriydi yalnız: A.Z. Atamdan soruşdum ki, bu A.Z. kimdir? Dedi ki, ”akademik Abbas Zamanovdur. Sağdır. Düz edib bütöv yazmayıb adını”. Əvvəl inanmadım. Lakin həmin adamın filologiya fakültəsi partiya iclaslarının birindəki çıxışı və heç kim hiss eləmədən aradan çıxması o adın baş hərflərlə də olsa kitabda çəkilməsinə görə müəllifə haqq qazandırdım. ”Vaxtdan uca” gözəl əsər idi.

**(ardı növbəti sayımızda)**

ədalət.-2019.-25 iyun.-S.6.